# ZAHMAN

(*Bəhri-təvil*)

Əzizim dostum, yoldaşım, nə yoldaş – əziz qardaşım, nə qardaş – əziz sirdaşım, bilirsən az deyil yaşım, ağrımış, bəlalar çəkmiş, get-gedə ağarmış başım, nə ağrıdım başını, ey dostum Zahman, yadındamı de o zaman, səni döyən, səni söyən müəllimlərə, heç kimə vermədin



aman, evə qaçdın, Qardabanda, bircə anda tüfəngi əlinə aldın, baxmadın solu-sağına atəş açdın məktəbinə, müəllimlər otağına və əlbəttə qayğısız gənclik çağına, yer-göy bir-birinə dəydi, dostum Zahman, söylə o nə hərəkətdi, xalqın səbrini tükətdi, söylə o hərəkət nəydi, işlərini yaman əydi, "məktəbi tərk et" dedilər, "həmən burdan get" dedilər, hirslənib rusa döndülər, xahişlərə "net" dedilər, eybi yoxdu, bu bir xoxdu, taleyin cilvəsi çoxdu, insafdırmı bir gənc sönə, ağlı başında olanlar yox, yox dedi dönə-dönə, Qardaban çəkildi geri, Kosalılar çıxdı önə, beləliklə, əziz Zahman, nə saraldın, nə də soldun, nə də saçlarını yoldun, Kosalıda, bu gözəl orta məktəbdə şagird oldun, çox sevindik sən də, biz də, on birinci sinfimizdə – burda oxumaq gərəkdi, bunu vaxtında, tez qandın, layiqli bir ad qazandın, biz səni dost qəbul etdik, sən də bizləri dost sandın, oxudun artdı savadın, doğrudur ki, bəzən yandın uzaqdakı qızlar üçün, neçə sevgili yar üçün, sən burda da dinc durmadın, qızlarla çəkildi adın, eh, kimə yaddır qız, qadın, biz də sənə yoldaş olduq, sevgi ilə biz də dolduq, idmana da çox baş qatdın, uğurlara imza atdın, yerinə yetdi diləyin, bükülmədi heç biləyin, yerə dəymədi kürəyin, amma xırda şeydir bunlar, vacib olan başqa şey var, qızılmış sənin ürəyin, beləcə əzizim Zahman, dəyişdi keçdi o zaman, zaman verməyir ki, aman, orta məktəb sona yetdi, hərə bir tərəfə getdi, hərə bir tərəfdə itdi, hərə bir cür seçim etdi, dedin mühəndis olacam, ev tikəcəm, yol salacam, təhsilini vurdun başa, yolun düşdü kənd-şəhərə, dağa-daşa, qurub tikdin, etdiklərin bir tamaşa, sonra birdən mail oldun gözə-qaşa, yaddan çıxdı gözəl Maşa, geri çəkildi Nataşa, dedin bəsdir, dedin yetər, bəxt ulduzun parıldadı, bəxtinə düşdü bir xanım, Tanrı dedi o gülü dər, özü saf zər, adı Yetər, həyatın yaxşı duruldu, doğrudur ki, qollarına bənd vuruldu, amma gözəl isti ocaq, ev quruldu, çalışdınız gecə-gündüz, yolunuz düz, asta-asta bö-





yüdünüz, bax, hər iki gözəl qız da – həm Nazpəri, həm də Aynur burdadılar – yanımızda, bir də, bir də, dilim gəlmir, birdən-birə bilməm niyə göydən yerə od ələnmir, həyatın üzü çox imiş, ömrə vəfa heç yox imiş, gül kimi bir həyat soldu, birdən-birə evdəki mələk yox oldu, dünya sənə dar göründü, dünya mənə, dünya sizə, dünya bizə dar göründü, dünya dumana büründü, eşqlə qanad çalan könül yerlərə düşdü, süründü, amma, dostum, sən hər zaman fikrə dalıb onunlasan, bilirəm bu deyil asan, bil ki, bizdən gedən gözəl qəlbimizdə yuva salıb, deməli o, səninlədir, bizimlədir, yox olmayıb, əzizim,



dostum, yoldaşım, nə yoldaş – əziz qardaşım, nə qardaş – əziz sirdaşım, bilirsən az deyil yaşım, görürsən ağarmış başım, quruyan deyil göz yaşım, amma həyat şirin şeydir, əlimizdə şərbət, meydir, yaşamağın dərin-dərin mənası var, hər məxluqun atası var, anası var, qardaş, yoldaşı, dostu var, dostlarının dosta deməyə tostu var, dostum, demə qocalmışam, sən həyatı duya-duya yaşamısan, sən həyatdan bac almısan, sən ki indi yetmiş



beşə ucalmısan, təbrikimi qəbul eylə, səninlə mən ayrı deyil, birik, dostum, səninlə mən yol gedirik, qarşımızda gör nələr var, yeni-yeni zirvələr var, onları kim fəth edəcək, əlbəttə sən, sən fəth eylə, qalan hamı sənin izinlə gedəcək və səninlə, əziz dostum Zahman ilə fəxr edəcək, yaşa-yaşa, ömür yolu bir tamaşa, bu yolda sən üzüağ ol, gəl mən səni qucaqlayım, deyim var ol, deyim sağ ol, sağ ol, sağ ol !!!

**06.11.2022**